AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ƏLİRZA MOHAMMADREZA oğlu BEHRUZİ ZAD**

# NƏQLİ CÜMLƏLƏRİN İNTONASİYA VARİATİVLİYİNİN EKSPERİMENTAL-FONETİK TƏHLİLİ

**10.02.04 – German dilləri**

filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

**BAKI – 2010**

İş Azərbaycan Dillər Universitetinin alman dilinin fonetikası, qrammatikası və tarixi kafedrası və eksperimental fonetika və tətbiqi dilçilik laboratoriyasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>Fəxrəddin Yadigar oğlu Veysəlli |
| Rəsmi opponentlər: | filologiya elmələri doktoru, professor<br>Azad Yəhya oğlu Məmmədov |
| | filologiya elmələri namizədi, dosent<br>Faiq Hüseynqulu oğlu Hüseynov |
| Aparıcı təşkilat: | Bakı Slavyan Universitetinin<br>Roman-german filologiyası kafedrası |

Müdafiə 25 sentyabr 2010-cu il saat 18[00] -da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az.1014, Bakı şəhəri, R.Behbudov küçəsi, 60.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 15 iyul 2010-cu ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının
elmi katibi, filologiya elmləri namizədi,
dosent Sevda Davud qızı Vahabova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Variativlik dil sisteminin və onun fəaliyyətinin fundamental xüsusiyyətidir. Variativlik dil vahidlərinin ifadə və məzmun planında təzahür edən dil sisteminin obyektiv immanent xüsusiyyətidir, yəni "variativlik dilin təkamül prosesinin nəticəsidir, həmçinin «maddi-ideal substratdır".[1] Variativliyi törədən səbəbləri F.Veysəlli belə şərh edir: "Dilin müxtəlif səviyyələrinin vahidlərinin variativliyi sistemdaxili qanunlara tabedir və dildaxili qaydalarla tənzimlənir. Bu halda söhbət mövqe, kombinasiya və distribusiya ilə şərtlənən strukturdaxili variativlikdən gedir. Strukturdaxili variativlik sosiolinqvistik amillərlə şərtlənən variativliyə (müəyyən dil kollektivi üzvləri tərəfindən müxtəlif idiolekt və zaman şəraitlərində istifadə olunan variantlar) qarşı qoyulur".[2] Variativlik dilin bütün səviyyələrinin (fonoloji, morfoloji, leksik, sintaktik) vahidlərinə xasdır və həmin səviyyələrin vahidləri danışıq aktında variantlarda təcəssüm tapırlar.

Q.P.Torsuyevə görə, "konstantlıq və variativlik dil strukturunun vacib xüsusiyyətlərindəndir ...onlarsız dil nə mövcud ola bilər, nə də inkişaf edə bilər...variativlik dilin bütün səviyyələrində və onların vahidlərində hər bir səviyyənin səciyyəsinə uyğun şəkildə özünü göstərir" və ya "...dil nəzəriyyəsi variativlik nəzərə alınmadan yarımçıq və qeyri-adekvatdır".[3]

Dil vahidlərinin danışıq aktında variativliyi dil hadisəsi kimi «variant» və «invariant» anlayışlarının vəhdətində bulunur. Variant eyni bir mahiyyətin müxtəlif cür təzahürü, invariantlıq bu və ya digər mahiyyətin konkret modifikasiyasının abstrakt işarəsidir. İ.A.Boduen de Kurtene, L.V.Şerba, Y.S.Maslov, L.R.Zinder, F.Y.Veysəlli, D.N.Yunusov və b. alimlər variativliklə bağlı fikirlər söyləmişlər. Lakin F.Veysəllinin də qeyd etdiyi kimi, dil vahidlərinin variativliyini, invariantların dəqiq müəyyənləşdirmək qaydalarını, habelə variant anlayışının birmənalı izahını, variativliyin hüdudlarına dair ümumnəzəri məsələləri özündə əks etdirən əsərlər hələ də yoxdur»[4].

---

[1] Г.В.Степанов. К проблеме варьирования языка. М.: Наука, 1970, s. 10

[2] Ф.Вейсалов (Вейсалли). Проблема варьирования фонем в современной фонологии. //Вопросы языкознания, М.: №3, 1990, s. 73

[3] Г.П.Торсуев. Константность и вариативность в фонетической системе. М.: Наука, 1977, s. 3

[4] Ф.Вейсалов (Вейсалли). Göstərilən əsəri, s. 74

*Tədqiqatın obyekti* ingilis dilində nəqli cümlələrin canlı danışıqda intonasiya konturunun variativlik xüsusiyyətləridir.

*Tədqiqat işinin predmeti* ingilis dilində nəqli cümlələrin intonasiya xüsusiyyətlərinin tədqiqindən alınan nəticələrin ümumiləşdirilməsi və sistemləşdirilməsidir.

*Tədqiqat işinin məqsəd və vəzifələri.* Tədqiqat işinin məqsədi ingilis dilində nəqli cümlələrin intonasiya modellərində (prosodik modellərində) fərqli və oxşar əlamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqat işinin qarşısında duran əsas *vəzifələr* aşağıdakılardır: variativlik anlayışının mahiyyətini açmaq və onun mövcud təriflərinin təhlilini vermək; variativlik probleminin dilçilikdə qoyuluşuna aydınlıq gətirmək; variativliyin dil sistemində yerini və rolunu müəyyənləşdirmək; nəqli cümlələrin prosodik səciyyəsinin məzmunla əlaqəsini araşdırmaq; nəqli cümlələrin intonasiya modellərini müəyyənləşdirmək; variativliyin cümlənin intonasiya konturuna təsirini müəyyən etmək; nəqli cümlələrin intonasiya konturunun invariant modelini tərtib etmək və nəqli cümlələrin intonasiya modellərində oxşar və fərqli əlamətləri üzə çıxartmaq.

*Tədqiqatın elmi yeniliyi.* İngilis dilində nəqli cümlələrdə intonasiya variativliyinin geniş dil materialı əsasında eksperimental yöndə ilk dəfə araşdırılması tədqiqatın elmi yeniliyi kimi dəyərləndirilə bilər.

*Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.* Variant-invariant münasibətlərinin işlənib hazırlanması dil-danışıq dixotomiyasının, habelə onunla bağlı digər məsələlərin - dildə ictimai və fərdi, sistem və norma və s. problemlərin öyrənilməsinə yardım göstərə bilər.

*Praktik* baxımdan variativlik probleminin işlənilməsi xarici dilin tədrisi məsələlərinin səmərəli həllinə və danışığın avtomatik dərkinə, həmçinin ingilis dilinin Azərbaycan auditoriyasında tədris prosesinin təkmilləşdirilməsinə və nəqli cümlələrin intonasiya xüsusiyyətlərinə dair nəzəri biliklərin zənginləşdirilməsində yardımçı ola bilər.

*Tədqiqatın metodları.* Dissertasiya işində təsvir, akustik təhlil metodlarından, nəticələrin riyazi-statistik hesablanması üsulundan, habelə səs siqnallarının öyrənilməsində kompüter proqramından (Praat) istifadə olunmuşdur.

*Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar*:

1) dilin immanent xüsusiyyəti olan variativliyin nəqli cümlələrin intonasiya konturunun formalaşmasında rolu inkaredilməzdir;

2) ayrı-ayrı nəqli cümlələrin intonasiya konturları və invariant modelləri arasındakı oxşar və fərqli cəhətləri aşkar etmək nəzəri dilçilik baxımından çox əhəmiyyətlidir;

3) söyləmin intonasiya kompleksinin prosodik əlamətlərinin variativlik dərəcəsi onların söyləmin kommunikativ mənasının açılmasında rolu ilə düz mütənasibdir;

4) cümlələrin intonasiya modellərinin tutuşdurulması onların oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsinə imkan verir;

5) cümlənin məna çalarlarının (konnotativlik) açılmasında intonasiyanın rolu və onun intonasiya konturunda öz əksini tapmasının dəqiqləşdirilməsi;

6) cümlədə omonimlik və çoxmənalılığın dəqiqləşdirilməsində intonasiyanın rolunun müəyyənləşdirilməsi.

*Dissertasiyanın aprobasiyası.* Dissertasiya işi ADU-nun alman dilinin fonetikası, qrammatikası və tarixi kafedrası nəzdindəki eksperimental fonetika və tətbiqi dilçilik laboratoriyasında yerinə yetirilmişdir. Dissertasiya işinin nəticələri kafedranın iclaslarında və 5 elmi məqalədə geniş şərh olunmuşdur. Eyni zamanda dissertasiya işinin mövzusu ilə bağlı ADU-da "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda keçirilmiş III Respublika elmi konfransında məruzə edilmişdir.

*Tədqiqat işinin strukturu.* Tədqiqat işi giriş, 3 fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, elmi yeniliyi, obyekt və predmeti, nəzəri və praktik əhəmiyyəti, məqsəd və vəzifələri, dil materialı və tədqiqat metodları şərh olunur.

Dissertasiyanın "Dilçilikdə variativlik problemi haqqında" adlı I fəsli variativlik probleminin ümumi dilçilikdə tədqiqi tarixinə həsr olunmuşdur. Fəsildə seqment və superseqment vahidlərin variativliyi araşdırılır və fəsilsonu nəticə ilə tamamlanır.

Variativlik dildə eyni bir mənanın müxtəlif formalarla verilməsi kimi müəyyənləşdirilir. Dilin təkamülünün nəticəsi olan variativlik onun inkişafına da zəmin yaradır. Variativliyə baxışlardakı ziddiyyətlərin kökündə, zənnimizcə, "invariant-variant" dixotomik yanaşmadan irəli gələn fikirlər durur. Mahiyyət etibarı ilə variativlik dilin inkişafının, izafiliyin

göstəricisidir, lakin elə izafilik ki, o, inkişafa, hərəkətə təkan verir, pozitiv təsir göstərir.

Məlumdur ki, F. de Sössür dil fəaliyyətində dil və nitqi fərqləndirirdi. "Dil fəaliyyətinin öyrənilməsi iki hissəyə bölünür: onlardan birinin predmeti dil, yəni mahiyyətinə görə sosial və fərddən (individdən) asılı olmayan, bu elm sırf psixidir; digəri, ikinci dərəcəli, predmeti isə nitq fəaliyyətinin fərdi tərəfidir və o da sırf psixidir".[1]

L.V.Şerba dildə üç aspekti fərqləndirir: ayrı-ayrı fərdlərin dil fəaliyyəti, dil materialı və lüğət. Bu halda birinci yerdə danışıq fəaliyyəti, yəni danışıq və eşitmə gəlir və o, ikinci aspektin - dil sisteminin, yəni lüğət və qrammatikanın sayəsində mümkündür. O, dilə sistem kimi yanaşır: "...dil sistemi və dil materialı yalnız təcrübədə verilmiş dil fəaliyyətinin müxtəlif tərəfləridir, çünki aydındır ki, dil materialı anlaşılmasa, o ölüdür, anlamanın özü isə dil materialı (dil sistemi) olmadan mümkün deyildir".[2]

F.Veysəlliyə görə, dil danışıqda təzahür edir, yalnız danışıq dilin fonetik strukturunun öyrənilməsində obyekt kimi çıxış edə bilər, dilin bütün daxili qanunauyğunluqları burada müşahidə olunmalı və ümumiləşdirilməlidir, "...elə hadisələr var ki, onlar dilin fonoloji sisteminə aid deyil, sırf fonetik xarakter daşıyır, lakin o hadisələrsiz fonologiya keçinə bilməz".[3]

E.Koseriu da dixotomik prinsipin əvəzinə trixotomik prinsip ideyasını irəli sürür. O, dil/danışıq dixotomiyasından imtina edərək, danışıq aktı/norma və sistemi əsas götürən üçlü yanaşmanı əsaslandırır. Normanın sistemdən kiçik olduğunu göstərən E.Koseriu "normaya sistemdəki imkanların reallaşması" kimi baxır.[4] F.Veysəlli də dildə üç səviyyəni fərqləndirir: "funksional sistem səviyyəsi, norma səviyyəsi və konkret danışıq akti səviyyəsi".[5]

---

[1] Ф. де Соссюр. Заметки по общей лингвистике. М.: Прогресс, 1990, s. 26

[2] Л.В.Щерба. Языковая система и речевая деятельность. Л.: Наука, 1974, s. 26

[3] F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı: Maarif, 1993, s. 103

[4] E.Koseriu. Ümumi dilçiliyə giriş. (Alman dilindən çevirəni, giriş məqalənin və qeydlərin müəllifi fil.e.d., prof.F.Veysəllidir). Bakı: Mütərcim, 2006, s. 6

[5] Ф.Я.Вейсалов (Вейсалли). Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы): Автореф. дис. ...докт. филол. наук. Л.: 1980, s. 8

Sistem, norma və konkret danışıq aktı səviyyələrindən çıxış edən üçlü yanaşma elmi cəhətdən əsaslı və məqsədəuyğundur. Üçlü yanaşmanın fəlsəfi mahiyyətini F.Veysəlli daha dolğun şərh edir: “Xüsusi vahidləri olan hər üç səviyyənin vahidləri dialektik vəhdət təşkil edirlər. …konkret danışıq aktı bu hierarxiyada ən aşağı səviyyədir və səslərlə (fonlarla) təmsil olunur. Bu səviyyə “təkcə” kimi çıxış edir. Norma səviyyəsinin vahidi variantlar bu hierarxiyada “xüsusi” kimi, funksional sistemin vahidi olan fonemlər isə «ümumi» kimi çıxış edir”.[1]

Norma vahidi olan variant sistemdən asılıdır. Sistemdə təzahür edən dəyişiklik normada dəyişikliyə gətirib çıxarır. Normadakı yerdəyişmələr sistemlə tənzimlənir. Normada sistemdə mövcud olanla və ya potensiyada mövcud olan arasında seçim baş verir. Normadan yayınma sistemin inventarında dəyişməyə gətirb çıxarır. İnvariant variantlarsız, eynilə variantlar da invariantsız mümkün deyildir. Dil səviyyələrinin variativliyini D.Yunusov sistemdaxili qanunlarla nizamlandığını qeyd edir və onu mövqe, kombinator, distribusiya ilə şərtlənən variantları özündə ehtiva edən strukturdaxili variativlik adlandırır.[2]

Variativlik problemilə ilkin təmas dilin fonoloji səviyyəsini araşdırarkən baş tutur. L.V.Şerba fonemin çalarlarının araşdırılmasını, habelə onların hər birinin yaranma səbəblərinin şərhini fonetikanın əsas və qəliz məsələlərindən hesab edirdi.[3]

Dissertasiyanın “Cümlə intonasiyasının variativliyinin tədqiqi” adlı II fəslində intonasiya variativliyinin ümumi və spesifik xüsusiyyətləri araşdırılır. Fəsildə intonasiya variativliyinin cümlənin mənasının açılmasındakı rolundan bəhs olunur. Danışıq aktında intonasiya vahidi və ya intonasiya konturu dilin digər vahidləri kimi variativliyə məruz qalır. Səslənmənin variativliyi hər bir intonasiya konturunun öz aralarında akustik-artikulyator xüsusiyyətləri fərqlənən və cərgənin neytral üzvü ilə əvəzlənə bilən intonasiya cərgəsi əmələ gətirir. İntonasiya konturunun variativliyi səsli danışığın rəngarəngliyini təmin edir. L.V.Şerbanın intonasiyanın müstəqilliyinə işarə etməsi məsələnin həllinə yeni ruh verdi. Baxmayaraq ki, intonasiya özü-özlüyündə mövcud deyildir və onu sözdən təcrid

---

[1] Yenə orada, s. 8

[2] D.N.Yunusov. Müxtəlif sistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi: Filol. elm. dok. ….dis. avtoref. Bakı: 2007, s. 4

[3] Л.В.Щерба. Языковая система и речевая деятельность. Л.: Наука, 1974, s. 122

olunmuş şəkildə təsəvvür etmək mümkün deyildir. “Pəncərə çərçivəsiz olmadığı kimi, intonasiyanı da sözsüz təsəvvür etmək mümkün deyildir”.[1]

E.A.Brızqunova rus dilində yeddi intonasiya konturundan bəhs edir və dildə intonasiya ilə qrammatik strukturun bir-birilə sıx əlaqəsini əsas götürür.[2] Lakin onun yeddi intonasiya konturu fikrini F.Veysəlli qəbul etmir: “Cümlənin məna çalarlıqlarını ifadə etməklə E.A.Brızqunovanın hazırladığı intonasiya konstruksiyaları çox əhəmiyyətli təsvir vasitələridir. Əlbəttə, onlardan cümlələrin məna çalarlıqlarının ətraflı təsvirində istifadə oluna bilər. Ancaq bu prinsip intonasiyanın cümlədaxili funksiyasının genişlənmiş formasıdır”.[3]

İntonasiyaya atomist mövqedən yanaşanlar hər bir cümlə növünün özünəməxsus intonasiyası olduğunu iddia edirlər. Yalnız fonoloji yanaşma bu zərərli meyli intonologiyadan çıxarıb atdı. İndi intonasiyaya bir sistem kimi yanaşılır və bu sistemdə üç intonasiya konturunun olması fikri tədricən özünə yer tapmaqdadır, “…intonasiya vahidləri terminal, davamedici və sual olmaqla bir sistem yaradır. Beləliklə, biz dilin intonasiya sistemini üç intonasiya konturunun qarşılaşması kimi götürürük”.[4]

İntonasiya ilə cümlənin mənası arasındakı əlaqəni L.R.Zinder belə şərh edir: “İntonasiya və cümlənin mənası arasındakı möhkəm əlaqənin olması onu kommunikasiyanın vacib amillərindən birinə çevirir. …cümlənin başa düşülməsində onun tərkibinə daxil olan bütün sözlərin tanınması vacib deyildir. Kontekst əksər hallarda eşidilməmiş sözü bərpa etməyə imkan verir, hətta “bərpa” baş verməsə də, cümlənin mənasının başa düşülməsi istisna deyildir. Şübhəsiz ki, bu zaman intonasiya vacib rol oynayır.[5] İntonasiyanı yeni mahiyyətdə qəbul edən F.Veysəlli onun məzmun düzənini və funksional yönünü dəyişir “intonasiya seqmentüstü hadisə olmaqla, fikrin dinləyiciyə çatdırılmasında mühüm rol oynayan fonoloji vasitədir”.[6]

---

[1] Л.В.Щерба. Русские гласные в качественном и количественном отношении. Л.: Наука, 1974, s. 4-5

[2] Е.А.Брызгунова. Фонологический метод в интонации /Интонация. Киев: 1978, s. 20

[3] F.Veysəlli. Struktur dilçiliyin əsasları. Studia Philologica I. Bakı: Təhsil, 2005, s. 19

[4] Yenə orada, s. 304

[5] Л.Р.Зиндер. Общая фонетика. М.: Высшая школа, 1979, s. 268

[6] F.Veysəlli. Struktur dilçiliyin əsasları. Studia Philologica I. Bakı: Təhsil, 2005, s. 229

Dissertasiyanın "Nəqli cümlələrin intonasiya variativliyinin eksperimental-fonetik təhlili" adlı III fəslində ingilis dilindəki nəqli cümlələrdə intonasiyanın variativliyi eksperimental-fonetik planda təhlil olunur.

Melodiklik prosodik vasitələr arasında aparıcı yer tutur. L.R.Zinderin sözlərilə desək, melodiklik intonasiyanın digər komponentlərindən daha çox cümlənin kommunikativ növünün - nəqli, sual və nida və s. ifadəsinə xidmət edir[1]. Melodik komponent danışıq aktının üzvlənməsinə və onun ayrı-ayrı hissələrinin əlaqələndirilməsinə xidmət edir. Danışıq kəsiyinin sonunda tonun qalxması sual, nida və ya fikrin bitmədiyi hallarda özünə yer tapır. Danışıq kəsiyində tonun enməsi onun ya müstəqil məna və sintaktik vahid, ya da hər hansı bir mürəkkəb cümlənin bitdiyini bildirir. Başqa sözlə, danışıq aktında səs tonunun qalxıb-enməsi onun melodiyasını təşkil edir.

«There is a horse on the lawn» /ˈðɛər‿ız ə ˈhɔ:s ɒn‿ðə ˛lɔ:n// cümləsində əsas tonun tezliyi başlanğıcda 192 hs, sonda isə 128 hs-dir. «I know him» /aı ˛noʊ hım// birsintaqmlı cümləsində əsas tonun hərəkəti enən istiqamətlidir. Maksimum ton tezliyi sintaqmın ikinci hecasında– 210 hs, nisbətən aşağı qiymət isə sonunda qeydə alınmışdır 156 hs (bax: qr. 3.1).

«I know him and I am proud of him» /aı ˛nəʊ ˛hım |ənd aı əm ˛praud əv hım// tabesiz mürəkkəb cümləsi ikisintaqmlıdır. Sintaqmlarda əsas ton tezliyi enən istqamətlidir. Birinci sintaqmda melodikliyin diapazon genişliyi 153-137 hs, ikinci sintaqmda 146-134 hs-dir. Lakin birinci sintaqmın sonunda əsas tonun tezliyi ikinci sintaqmın sonundakı səviyyəyə çata bilmir. «I know that he will come» /aı ˛noʊ ðət |hi· wıl ˛kʌm// tabeli mürəkkəb cümləsində maksimum ton tezliyi proqrediyent və terminal sintaqmların başlanğıcında qeydə alınmışdır: 165-140 hs. Sintaqmların əvvəli ilə sonu arasındakı ton intervalı belədir: 148-128 hs (bax: qr. 3.1).

«I know it» /aı ˛noʊ ıt// nəqli cümləsində əsas ton tezliyi başlanğıcda 192 hs, sonda isə 158 hs-dək enir (bax: qr. 3.2). Sintaqmın son vurğulu saitində əsas ton tezliyinin güclü zəifləməsi bitkinlik intonasiyasının səciyyəvi xüsusiyyətidir. Əsas ton tezliyinin zəifləməsi təkcə vurğulu sait daxilində deyil, həm də bütün cümlə boyu güclü dəyişikliyə məruz qalır və orta ton tezliyinə nisbətdə sintaqmın son vurğulu saiti aşağı tezliklərlə tələffüz olunur (bax: 3.1; 3.2).

---

[1] Л.Р.Зиндер. Göstərilən əsəri, s. 274

Qrafik 3.1




Nida cümləsinin melodik təsvirinin təhlili sintaqmda əvvəlki heca sonrakı ilə müqayisədə nisbətən yüksək tezlikdə tələffüz olunduğunu göstərir. «How good you are!» /'haʊ 'gʊd ju: ˏɑ:// cümləsində əsas ton tezliyi yüksələn-enən istiqamətlidir. Sintaqmın başlanğıcında nisbətən aşağı 190 hs, ortasında 206 hs, sonunda isə 156 hs ton tezliyi qeydə alınmışdır (bax: qr. 3.2).

Təhlil nida və nəqli cümlələrinin intonasiya konturlarında oxşar və fərqli xüsusiyyətlər ortaya çıxarır. Cümlələrin hər ikisində əvvəlki heca sonrakı hecaya nisbətdə daha yüksək tezliklə tələffüz edilir. İntonasiya konturu hər iki cümlə növündə enən istiqamətlidir. Lakin nəqli cümlədən fərqli olaraq, nida cümləsində əsas tonun zirvəsi sintaqmın başlanğıcında yerləşir. Nida cümləsində kommunikativ yükün sintaqmın başlanğıcında cəmləşməsi intonasiya konturunda da özünü göstərir (bax: qr. 3.1; 3.2).

Qrafik 3.2




«¿Are your coming?» /¿ˈa: ju· ˌkʌmɪŋ?// cümləsində əsas ton tezliyi yüksələndir. Sintaqmın başlanğıcında tezlik 189 hs-ə bərabərdir, sonunda isə bu göstərici 234 hs-dək artır. Maksimum ton sintaqmın sonunda qeydə alınmışdır - 234 hs. Sual cümləsində melodik xətt yüksələn istiqamətlidir.

«Long live the King» /ˈlɔŋ ˈlɪv ðə ˋkɪŋ// nida cümləsində maksimum ton tezliyi başlanğıcda 198 hs, nisbətən aşağı qiymət sintaqmın sonunda özünü göstərir 163 hs. Nəqli və nida cümlələrində olduğu kimi, əmr cümləsində də əsas ton konturu yüksələn-enən istiqamətlidir. Lakin nəqli cümlədən fərqli olaraq, əmr cümləsində melodiklik zirvəsi başlanğıc mərhələdə yerləşir və o, nəqli cümlələrdəki kimi kəskin zəifləmir (bax: qr. 3.2).

Eksperimentin nəticələri F.Veysəllinin müddəalarının keçərli olduğunu təsdiq edir. O yazır: "Əsas ton tezliyinin maksimum zəifləməsi nida və sual sözlü sual cümlələrində də müşahidə olunur. Bu cümlələr maksimum zəifləmənin yerinə görə nəqli cümlələrdən fərqlənmir. Lakin nəzərdən keçirilən nida cümlələrində melodiklik zirvəsinin onların başlanğıcında yerləşdiyi halda, nəqli cümlələrdə zirvənin daimi yeri yoxdur. Yəqin ki, bu nida cümlələrində kommunikativ özəyin başlanğıcda yerləşməsilə bağlıdır".[1]

---

[1] Ф.Вейсалов (Вейсалли). Мелодический компонент терминальной интонации // Уч. зап. АГУ, Язык и литература, 1970, № 5-6, s. 133

Əsas ton tezliyinin maksimum zəifləməsinin sintaktik strukturla şərtlənmədiyini F.Veysəlli də qeyd edir: "Melodik təsvirdə zirvə başlanğıcda və ya ortada yerləşə bilər, lakin əsas tonun ümumi hərəkəti enən istiqamətli olaraq qalır".[1]

Yuxarıdakı cümlələrin hamısında proqrediyent və terminal sintaqmlarda əsas tonun hərəkəti enən istiqamətlidir. Lakin hər iki cümlədə tonun maksimum zəifləməsi terminal sintaqmın sonundakı hecada qeydə alınmışdır (bax: qr. 3.1; 3.2).

Qrafik 3.4




İkisintaqmlı cümlələrin melodik strukturunu müəyyənləşdirmək üçün sintaqmların sonluqlarını müqayisə etmək vacibdir. Terminal sintaqmın sonuncu hecası proqrediyent sintaqmın sonuncu hecasına münasibətdə dəqiq mövqe tutur və əsas tonun maksimum zəifləməsi məhz bu hecada qeydə alınır. Cümlədə əsas tonun minimal qiyməti terminal sintaqmın sonuncu hecasında qeydə alınmışdır. Proqrediyent sintaqmın sonuncu hecası bütöv cümlənin melodik strukturunda nisbətən də olsa yüksəkdir (bax: qr. 3.1; 3.2; 3.4).

Terminal və proqrediyent sintaqmların sonluqlarının qarşılaşdırılması göstərir ki, terminal sintaqmın sonunda əsas ton tezliyi xeyli aşağı

---

[1]Yenə orada, s. 133

olduğu halda, proqrediyent sintaqmda bu parametr ümumi cümlənin əsas ton tezliyinə yaxındır. Proqrediyent sintaqmların sonunda əsas ton tezliyi terminal sintaqmın başlanğıcına münasibətdə dəyişkəndir, yəni o yüksək, bərabər və ya aşağıdır. Terminal sintaqmların sonu tonun maksimum enməsilə səciyyələnir. Proqrediyent sintaqmların mütləq sonluğunda ton tezliyi nisbətən yüksəkdir, yəni o, ya otra nisbi qiymətə yaxın, ya da orta nisbi qiymətdən yüksəkdir (bax: qr. 3.1; 3. 2; 3.4).

İki və daha artıq sintaqmdan təşkil olunmuş cümlələrdə tonun hərəkətini F.Veysəlli belə şərh edir: "Birdən çox sintaqmdan təşkil olunmuş cümlələrin sonuncu sintaqmının əsas ton tezliyinin səviyyəsi birsintaqmlı cümlələrin səviyyəsilə eynidir".[1]

L.R.Zinderə görə, səslərin dəyişməsinə danışıq tempi ciddi təsir edir. ...yavaş tempdə səslər daha aydın tələffüz olunur, nəinki sürətli tempdə, bir səsin tələffüzündən digərinə keçiddə çox və ya qismən yayıldığını göstərir.[2]

«I know it» /aı ˏnoʊ ıt// nəqli cümləsində tələffüz tempi sintaqmın başlanğıcında 160 m/san, ikinci hecada 173 m/san, sonda 132 m/san-yə qədər enir. «Long live the King» /ˈlɔŋ ˈlıv ðə ˋkıŋ// nida cümləsində maksimum uzunluq sintaqmın başlanğıcına düşür - 171 m/san, nisbətən aşağı qiymət sintaqmın ortasında - 96-90 m/san, sonda isə tələffüz tempi başlanğıc tempinə çatmasa da xeyli yavaşıyır - 142 m/san (bax: qr. 3.8).

«¿Are your coming?» /¿ˈɑː ju· ʞʌmıŋ?// cümləsində intonasiya konturu yüksələn istiqamətlidir. Sintaqmın başlanğıcında tələffüz tempi 156 m/san, sonunda isə saitin tələffüz tempi sürətlənir - 98 m/san. Sual intonasiyalı sintaqmlarda orta tələffüz tempi aşağı olur ki, bu da onların sürətli tələffüzünü sübut edir. /ˈhaʊ ˈgʊd ju: ˌɑː// cümləsində zaman parametri 148 m/san-dən başlayır. Sintaqmın sonunda bu qiymət nisbətən zəifləyir - 152 m/san (bax: qr.3.8).

Cümlələrin sonuna doğru temporal göstəricilərdə artma müşahidə olunur. Cümlənin əsas ton tezliyinin qiymətlərilə müqayisədə zaman göstəricilərində tərs mütənasiblik müşahidə olunur. Cümlənin başlanğıc sintaqmında əsas ton tezliyi yüksək, zaman göstəriciləri aşağı, terminal sintaqmların sonunda əsas ton tezliyi aşağı, zaman göstəriciləri isə yüksəkdir (bax: qr. 3.8).

---

[1] Ф.Вейсалов (Вейсалли). Мелодический компонент терминальной интонации // Уч. зап. АГУ, Язык и литература, № 5-6, 1970, s. 131-134

[2] Л.Р.Зиндер. Göstərilən əsəri, s. 68

Qrafik 3.8




Eksperimentin nəticələrinə əsasən demək olar ki, sintaqmların əvvəlində danışıq tempinin artması proqrediyent sintaqmlar, sonunda danışıq tempinin ləngiməsi isə terminal sintaqmlar üçün səciyyəvidir. Danışıq tempinin ləngiməsi təkcə birsintaqmlı nəqli cümlələr üçün səciyyəvi deyildir. Analoji mənzərəyə birsintaqmlı nida və əmr cümlələrində də rast gəlinir. Birsintaqmlı nida cümlələrinin temporal təhlili sonda tempin ləngiməsinin səciyyəvi olduğunu göstərir. Beləliklə, saitlərin sintaqm daxilindəki yerləşməsinə əsaslanan sintaqmatik təhlildən məlum olur ki, terminal sintaqmlarda tempin ləngiməsi qanunauyğun haldır. İki və daha artıq sintaqmlı cümlələrin temporal təhlili proqrediyent sintaqmların sonu ilə müqayisədə terminal sintaqmların sonunda səslərin tələffüz tempinin xeyli ləngidiyini göstərir. Terminal sintaqmların sonunda saitlərin orta tələffüz sürəti proqrediyent sintaqmların orta tələffüz tempindən xeyli yüksəkdir (bax: qr. 3. 8).

Cümlənin başlanğıcı az vaxt sərfilə səciyyələndiyi halda, cümlə sonunda sərf olunan zaman xeyli çoxdur. Dediklərimizi sübut etmək üçün aşağıdakı cədvələ müraciət edək:

*Cədvəl 3.4*

| cümlələr | başlanğıc (m/san) | son (m/san) | fərq (m/san) |
|---|---|---|---|
| 1-ci cümlə | 135 | 166 | 31 |
| 2-ci cümlə | 103 | 140 | 37 |
| 3-cü cümlə | 145 | 190 | 45 |
| 4-cü cümlə | 126 | 167 | 39 |
| 5-ci cümlə | 90 | 148 | 58 |
| 6-cı cümlə | 108 | 138 | 30 |
| 7-ci cümlə | 96 | 148 | 52 |
| 8-ci cümlə | 130 | 152 | 22 |
| 9-cu cümlə | 117 | 152 | 16 |
| 10-cu cümlə | 140 | 147 | 07 |
| 11-ci cümlə | 136 | 146 | 10 |
| 12-ci cümlə | 146 | 117 | 29 |
| 13-cü cümlə | 143 | 123 | 20 |
| 14-cü cümlə | 172 | 142 | 30 |
| 15-ci cümlə | 163 | 145 | 17 |

Beləliklə, intonasiyanın zaman parametrinin təhlili onun bir sıra variativ xüsusiyyətlərə malik olduğunu göstərir. Bu parametrin əsas etibarı ilə sonda orta səviyyədə olması, cümlədə rema mərkəzinin üzərində ciddi şəkildə artması, terminal sintaqm sonunda isə tədricən zəifləməsilə səciyyələnir.

Saitin intensivliyi, hər şeydən öncə, bütövlükdə danışığın intensivliyindən, həmçinin onun söz və ya söyləm vurğusuna münasibətdə tutduğu mövqedən asılıdır. Dinamik səciyyəli vurğuda vurğulu sait vurğusuz saitdən intensiv olacaqdır və ya əksinə saitin intensivliyi onun akustik keyfiyyəti ilə bağlıdır. Səsin gücünün amplitudların genişlənmə dərəcəsindən asılılığını F.Veysəlli belə şərh edir: “Rəqsin amplitudları böyüdükcə səsin intensivliyi də artır”.[1] Cümlənin intonasiyası təkcə tonun qalxıb-enməsi və zaman dəyişikliyilə müşahidə olunmur, həm də həmin cümlənin

[1] F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı: Maarif, 1993, s.182

ayrı-ayrı elementlərinin tələffüzünə sərf olunan gücün paylanması ilə həyata keçir.

/aı ˌnəʊ ıt// nəqli cümləsində mütləq intensivlik qiyməti başlanğıcda 78 db, sintaqmın sonunda 69 db kəmiyyətindədir. «Long live the King» /ˈlɔŋ ˈlıv ðə ˋkıŋ// nida cümləsində maksimum intensivlik başlanğıcda qeydə alınmışdır - 85 db, nisbətən aşağı intensivlik qiyməti sonluqda özünü göstərir - 73 db (bax: qr. 3.14).

Qrafik 3.14




«¿Are your coming?» /¿ˈɑ: ju· ˌkʌmıŋ?// cümləsində dinamiklik konturu yüksələn istiqamətlidir. Sintaqmın başlanğıcında intensivlik 86 db, sonunda isə intensivlik 89 db-ə qədər artır. Cümlədə intensivliyin yüksələn istiqamətdə olması onun sual cümləsi strukturuna malik olması ilə izah oluna bilər. Ümumi sual cümlələrində akustik parametrlər yüksələn göstəricilərlə səciyyələnirlər.[1] «How good you are!» /ˈhaʊ gʊd ju: ˌɑ:!// cümləsində dinamiklik yüksələn-enən istiqamətlidir. Sintaqmın əvvəlində nisbətən aşağı intensivlik qeydə alınmışdır - 83 db, sintaqmın sonunda isə intensivlik 76 db-ə düşür (bax: qr. 3.14).

---

[1]C.Axundov. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). Bakı: Elm, 1999, 228 s.

Nida cümlələrinin intonasiya konturu sintaqmın əvvəlinin nisbətən yüksək intensivliyə malik olduğunu əks etdirir. Cümlədəki proqrediyent sintaqmın sonuncu hecasında intensivliyin zəifləməsi terminal sintaqmla müqayisədə xeyli zəifdir. İntensivliyin maksimum zəifləməsi sonuncu hecada qeydə alınmışdır. Proqrediyent sintaqmın sonunda amplitudların zəifləməsi müşahidə olunur, lakin o, terminal sintaqmın sonuncu hecasının intensivliyindən xeyli yüksəkdir (bax: qr. 3.14).

Terminal və proqrediyent sintaqmların sonundakı intensivlik qiymətlərinin müqayisəsindən bu qənaətə gəlmək olar ki, terminal sintaqmın sonunda intensivlik minimum həddə çatır. Proqrediyent sintaqmların sonunda intensivlik göstəriciləri terminal sintaqmın başlanğıcına nisbətdə yüksək, bərabər və ya aşağı göstəricilidir, yəni o, dəyişkən xarakterlidir. Bu da həmin parametrin variativliyi deməkdir. İkisintaqmlı cümlələrdə terminal sintaqmların mütləq sonluğu intensivliyin maksimum düşməsilə səciyyələnir (bax: qr. 3.14).

Cümlələrdə intensivlik qiymətlərinin təhlili amplitudların maksimum zəifləməsinin adətən sonuncu hecalar üçün daimi xarakter daşıdığını göstərir. İntensivliyin terminal sintaqmlarda sönən istiqamətdə hərəkət etməsini həmin cümlələrin kommunikativ təyinatı ilə izah etmək olar. Terminal sintaqmın dinamik strukturunu proqrediyent sintaqmın dinamik strukturundan fərqləndirən əsas cəhət birincinin sonunda intensivliyin maksimum zəifləməsidir (bax: qr. 3.14).

Nəqli cümlələrin sonunda intonasiya konturu əsas tonun tezliyinin enməsi, zamanın artması və intensivliyin zəifləməsilə səciyyələnir, ümumi sual cümlələrinin sonunda isə bu parametrlər artan göstəricilərlə ifadə olunurlar. İntonasiya konturunun bu cür reallaşması sintaqmın sintaktik quruluşunu və məzmun tutumunu əks etdirir. Cümlələrdə enən ton funksiyasına görə fikrin nisbətən bitdiyini ifadə etməyə xidmət edir. Sintaqmlar arasındakı sərhəd əsas etibarı ilə müsbət intervalla, yəni əvvəlki sintaqmın sonunun sonrakı sintaqmın başlanğıcı ilə müqayisədə aşağı olması ilə səciyyələnir (bax: qr. 3.1; 3. 2; 3.4; 3.8).

İngilis dilində sual intonasiyası sintaqmlarda melodiklik və intensivliyin yüksəlməsi, tələffüz tempinin isə ləngiməsilə xarakterizə olunur. Sual intonasiyasının əsas əlaməti sintaqmın mütləq sonluğunda melodikliyin hissolunacaq dərəcədə yüksəlməsi və tələffüz tempinin maksimum ləngiməsidir (bax: qr. 3.1; 3.2; 3.4; 3.8; 3.14).

Dissertasiyanın yekun hissəsində tədqiqat işində əldə olunmuş nəticələr ümumiləşdirilir.

Mövzu ilə bağlı aşağıdakı məqalələr çap edilmişdir:

1. Nəqli cümlənin tədqiq tarixinə dair // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, III buraxılış, 2008, s. 10-13
2. Amerikan dilçiliyində intonasiya probleminə dair // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. VI buraxılış,2008, s. 23-26
3. Cümlənin statusuna dair // ADU-nun Elmi xəbərləri, 2008, № 5, s. 110-113
4. Cümlənin struktur baxımdan formalaşmasına dair // ADU-nun Elmi xəbərləri, Bakı, 2008, № 6, s. 93-99
5. О лингвистическом статусе предложения // Объединенный научный журнал. М.: 2009, № 6 (224), s. 41-44
6. Xarici dilin tədrisində müasir texnologiyanın tətbiqi. Ümummilli lider H.Əliyevin sərəncamı ilə ali məktəbimizə universitet statusu verilməsinin 10 illiyinə həsr olunmuş "Xarici dillərin tədrisinin aktual problemləri" III Respublika Elmi Konfransı (15-17 aprel 2010-cu il), Bakı, s.

Алирза Магоммедреза оглу Бехрузи зад

# ЭКСПЕРИМЕНТАЛЬНО-ФОНЕТИЧЕСКИЙ АНАЛИЗ ИНТОНАЦИОННОЙ ВАРИАТИВНОСТИ ПОВЕСТВОВАТЕЛЬНЫХ ПРЕДЛОЖЕНИЙ

## Резюме

Диссертация состоит из введения, трех глав, заключения, списка литературы и приложения.

Во введении обосновывается актуальность темы, определяются цели и задачи, теоретическая и практическая значимость, новизна исследования, принцип отбора языкового материала, применяемые методы, формулируются основные положения, выносимые на защиту.

Первая глава под названием «К проблеме вариативности в языкознании» посвящена исследованию проблемы вариативности в общем языкознании. В этой главе рассматривается вариативность как сегментных, так и суперсегментных единиц языка.

Вторая глава под названием «Исследование вариативности интонации предложения» посвящена роли интонации при раскрытии значений предложений. В этой главе исследуется роль интонации в выражении коннотативных оттенков предложений, а также изучается роль интонации при уточнении омонимии и многозначности.

Третья глава диссертации под названием «Экспериментально-фонетический анализ интонационной вариативности повествовательных предложений» посвящена просодическому анализу повествовательных предложений. В данной главе выявляются особенности интонационных структур исследуемых предложений в английском языке.

В заключении обощаются результаты исследования.

Alireza Behroozy zad

## EXPERIMENTAL-PHONETIC ANALYSIS OF INTONATIONAL VARIATIONS OF DECLARATIVE SENTENCES

### Summary

The dissertation consists of an introduction, three chapters, a conclusion, references and supplements.

The introduction substantiates the topicality of the theme, determines the aim and objectives, theoretical and practical significance, its scientific novelty, principles of choice of language material, methodology of research and the provisions to be defended.

The first chapter titled "On the problem of variation in linguistics" is devoted to the problem of variation in general linguistics. It deals with variations of segmental, as well as super-segmental units of the language.

The second chapter titled "Investigation of variation in sentence intonation" is devoted to the role of intonation in disclosing the sense of the sentence. Here the role of intonation in expressing the connotations of the sentence, as well as the role of intonation in the classification of homonymy and polysemy are studied.

The third chapter titled "Experimental-phonetic analysis of intonational variations in declarative sentences" is devoted to the prosodic analysis of declarative sentences. It deals with similarities and differences in the intonational structure of declarative sentences in the English language by comparison in to other types of sentences.

The conclusion reflects the basic inferences of the investigation.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ**

*На правах рукописи*

**АЛИРЗА МАГОММЕДРЕЗА оглу БЕХРУЗИ ЗАД**

# ЭКСПЕРИМЕНТАЛЬНО-ФОНЕТИЧЕСКИЙ АНАЛИЗ ИНТОНАЦИОННОЙ ВАРИАТИВНОСТИ ПОВЕСТВОВАТЕЛЬНЫХ ПРЕДЛОЖЕНИЙ

**10.02.04 – Германские языки**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологическим наукам

**БАКУ – 2010**